

# ZƏRİF HİSSLƏR, LİRİK DUYĞULAR

Zərif hisslər, lirik duyğular... Qadın dünyasını, onun incə aləmini bu sözlər olmadan təsəvvür etmək mümkün deyil. Azərbaycan ədəbiyyatı, xüsusilə poeziyası əsrlər boyu o zəriflərin gözəlliyini, onlara pərəstişi, sevgini vəsf etməkdən yorulmayıb. Azərbaycan zəriflərinin özləri də təkcə şeir qəhrəmanı yox, həm də şair olublar, poeziyanın müxtəlif janrlarında yazıb-yaradıblar. Məhsətidən Firuzə Məmmədliyə, Natəvandan Fərqanəyə, Heyran xanımdan Nurəngiz Günə, Umugülsümdən Afaq Məsuda, Mirvarid Dilbazi, Nigar Rəfibəyli və Mədinə Gülgündən bu günün ən gənc zəriflərinə qədər... Bu yazar xanımlar (bu sıraya digər adları da əlavə edə bilərəm) öz lirik duyğularını, zərif hisslərini, yeri gələndə isə qəhrəmanlıq çağırışlarını, həm də nisgil və fəryadlarını məhz ədəbiyyat vasitəsilə dünyaya çatdırıblar. Mən istedadlı jurnalist və nasir Zemfira Məhərrəmlini də bu ənənəni yaşadan bir yazar hesab edirəm. Jurnalist sözünü ön sıraya çıxarmağımdan məqsəd odur ki, Zemfira xanımı, ilk növbədə, onun "Döyüşə qızlar gedir" kitabında toplanan publisistik yazıları, sənədli hekayələri ilə tanımışam. Həmin yazılarda Azərbaycan qadınının yurdsevər, vətən uğrunda savaşlara atılan mübariz obrazı yaradılıb. Zemfira xanımın təsvir etdiyi həmin qadınlar zərifliyin qəhrəmanlığa, qızılgülün qılınca çevrildiyini təcəssüm etdirirlər.

Sonra mən onun "Qırx qız dastanı" kitabını da oxudum. Daha sonra "Qarabağda savaş var" kitabını. Bizim bir çox jurnalistlərin, yazarların düçar olduğumuz müharibə haqqında bir sətir belə qələmə almadığı, Qarabağ müharibəsinin ağrı-acısını içində yaşatmadığı bir çağda Zemfira Məhərrəmlinin bu kitabları çox dəyərlidir, həm də qəlbində düşmənə qarşı savaş əzmi olmayanlara ibrətdi, utancdı. Z.Məhərrəmli bədii nəsrlə də məşğul olur. Mən "məşğuliyyət" sözünü peşə anlamında işlətmirəm. Təbii ki, bədii ədəbiyyat məşğuliyyət olmamalıdır. Zemfira xanımın "sadəcə oxu-maq üçün" mənə təqdim etdiyi nəsr əsərlərini də onun yazıçı olmaq iddiası kimi qəbul etmirəm. Bu yazılar ürək çırpıntılarından, qəlbin qarşısıalınmaz istəyindən yaranıb. Savaş publisistikasından lirik nəsrə keçməklə Zemfira Məhərrəmli Azərbaycan zəriflərinin sevgi dünyasını, ailə-məişət aləmini, ən başlıcası isə hisslər dənizini bədii sözə çevirib. "Oyuncaq" povestində Nərgiz və Rəsul sevgisi Leyli-Məcnun silsiləsinin bir çalarıdır. Leyli Məcnuna qovuşmadığı kimi, Nərgiz-Rəsul sevgisi də baş tutmur. Müəllif onların qəlb çırpıntılarını, mehriban, isti münasibətini, ünsiyyətini real təsvir edir. Həm də belə bir həqiqəti sübuta yetirir ki, sevgi yaşayır - böhranlı çağlar, ortaya çıxan maneələr, mənəvi fırtınalar olsa belə... Zemfira Məhərrəmlinin hekayələrinin, məncə, bir mövzusu var - qadın həyatı, qadın psixologiyası. Onun hekayələrinin süjeti də sadədir. Bu yazıların dili rəvan, axıcı, təmizdir. Bir sözlə, o, bir hekayənəvis kimi püxtələşə bilər. Böyük qırğız yazıçısı Çingiz Aytmatov deyirdi ki, hekayə qravüra sənətinə oxşayır, hekayə mozaikadır, müxtəlif xırda və zərif hissəciklərin qaynağıdır. Zemfira xanımın hekayələrində də ayrı-ayrı "hissəciklər" bir tam halında birləşməyə can atır. "Yuxunu suya danış" kövrək bir hekayədir. "Bir qaranlıq gecədə" kənd qadınının dolğun, dönməz xarakteri açıqlanır. "Analıq haqqı" Ana istəyinin, sevgisinin təcəssümüdür. "Beş saniyənin hökmü" həyat və ölüm qarşıdurmasını əks etdirir. "Qisas qiyamətə qalmaz" hekayəsi isə şərin iflasını, xeyrin qələbəsini canlandırır.

Zemfira xanıma jurnalist kimi çoxları uğur diləyib. Mən də üzərimə bir missiya götürərək, ona bir nasir kimi uğurlar arzulayıram. Amma unutmasın ki, seçilən, fərqlənən nasir olmaq çətindir.